# Siyasi elmlər

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.5.83.001

SƏBİNƏ QARAŞOVA
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: sgarashova@hotmail.com*

## CƏNUBİ QAFQAZDA REGİONAL TƏHLÜKƏSİZLİK ÜZRƏ AZƏRBAYCAN-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI

### Giriş

Cənubi Qafqaz regionunda yerləşən Azərbaycan və Gürcüstanın tarixi, mədəni və coğrafi baxımdan sıx əlaqələri vardır. Bu iki ölkə arasında münasibətlər çox uzun bir tarixə əsaslansa da, əsasən müstəqilliklərini qazandıqları 1990-cı illərdən bəri dinamik şəkildə inkişaf etmişdir.

Azərbaycanın enerji resursları və Gürcüstanın strateji coğrafi mövqeyi bu əməkdaşlığın əsas sütunlarını təşkil edir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu kimi böyük infrastruktur layihələri iki ölkə arasında iqtisadi inteqrasiyanı gücləndirmiş və regional təhlükəsizlikdə mühüm rol oynamışdır.

Eyni zamanda, hər iki ölkə Rusiya və Ermənistan ilə mövcud olan geosiyasi problemlərlə üzləşir, bu isə onların regional təhlükəsizlik məsələlərində daha sıx əməkdaşlıq etmələrinə şərait yaradır. Azərbaycan və Gürcüstan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq, hərbi təlimlər və kəşfiyyat məlumatlarının paylaşılması kimi müxtəlif təşəbbüslərlə daha da möhkəmlənmişdir. Bu əməkdaşlıq yalnız ikitərəfli deyil, həm də Türkiyə ilə üçtərəfli formatda həyata keçirilir, bu isə Cənubi Qafqazda sabitlik və təhlükəsizlik mühitinin formalaşmasına töhfə verir.

### Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli münasibətlərinin Cənubi Qafqazda regional təhlükəsizliyə təsirləri

Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli münasibətlərinin inkişafının zəruri səbəbləri həm geosiyasi, həm də iqtisadi amillərlə bağlıdır. Bu üç ölkənin əməkdaşlığı regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Azərbaycanın zəngin enerji resursları və Türkiyənin enerji ehtiyacları, Gürcüstanın isə strateji coğrafi mövqeyi bu əməkdaşlığı zəruri edir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz boru kəməri və Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu kimi irimiqyaslı layihələr regionun enerji təhlükəsizliyini və iqtisadi inkişafını gücləndirir. Hərbi və müdafiə sahəsində əməkdaşlıq isə regional təhlükəsizliyin möhkəmləndirilməsi üçün vacibdir. Bu üç ölkə Rusiyanın regiondakı təsirinə qarşı balans yaratmaq və Ermənistanın işğalçı siyasətinə qarşı birgə fəaliyyət göstərmək üçün əməkdaşlıq edir. Həmçinin, üçtərəfli formatda həyata keçirilən ortaq hərbi təlimlər və təhlükəsizlik layihələri, Cənubi Qafqazda stabillik və inkişaf üçün əhəmiyyətli töhfələr verir. 2008-ci ildə Rusiyanın Gürcüstana hərbi müdaxiləsindən sonra Azərbaycan, Gürcüstan və Türkiyənin regional ittifaq qurması son dərəcə təbii və hətta, zəruri addım kimi qəbul edilməlidir. Bu ittifaqın məntiqi nəticəsi olaraq bir müddət sonra iki ölkə arasında münasibətlər yeni xarakter qazanmağa başlamışdır. Bu istiqamətdə ilk vacib addım 8 iyun 2012-ci il tarixində Trabzonda xarici işlər nazirləri səviyyəsində keçirilən üç görüş və bu görüşlər nəticəsində qəbul olunan bəyannamə idi [3]. Bəyannamənin mətnində, xüsusən də demokratiya, hüquq, insan hüquqları, sərbəst bazar iqtisadiyyatı, ölkələrin suverenliyi və ərazi bütövlüyü vurğulanmış və Cənubi Qafqazdakı problemlərin bu prinsiplər əsasında həll ediləcəyi bildirilmişdir. Bəyanatda Türkiyə, Gürcüstan və Azərbaycan arasında siyasi, iqtisadi, mədəni əlaqələri və infrastruktur sahələrində əməkdaşlıq imkanlarını genişləndirmək əzmi ifadə edilmiş, hər üç dövlətin beynəlxalq təşkilatlara üzvlüyü mövzusunda bir-birini dəstəkləyəcəyinə söz verilmişdir.

Üçtərəfli əməkdaşlığın inkişafı üçün qəbul edilən növbəti sənəd üç ölkənin xarici işlər nazirləri tərəfindən 28 mart 2013-cü ildə imzalanmış Batumi Birgə Bəyannaməsidir. Bu sənəd Gürcüstanda daxili siyasi güc balansının dəyişməyə başladığı bir vaxtda imzalanmışdır [1, 125-139].

Bir il sonra, 19 fevral 2014-cü il tarixində Gəncədə xarici işlər nazirlərinin zirvə görüşü keçirildi. Bu sammitdə qəbul edilmiş bəyannaməyə əsasən, tərəflər 8 iyun 2012-ci il tarixli Trabzon bəyannamə-

si və 28 mart 2013-cü il tarixli Batumi kommünikesini regional əməkdaşlığın, siyasi dialoqun və xüsusi üçtərəfli layihələrin həyata keçirilməsi üçün vacib bir platforma kimi istifadə edəcəklər. Bundan əlavə, "Üçtərəfli Müdafiə Tədbirləri Fəaliyyət Planı"nda əks olunan yeni əməkdaşlıq mexanizmləri xüsusi əhəmiyyət daşıyırdı. Gəncə bəyannaməsində üç ölkə arasındakı əlaqələrin ikili və üçlü formatda inkişafından məmnunluq ifadə olunmuş, siyasət, ticarət, iqtisadiyyat, ətraf mühit, mədəni, elmi, səhiyyə, turizm və idman sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğu bildirilmişdir [4].

10 dekabr 2014-cü il tarixində Qarsda imzalanan bəyannamədə isə hər üç dövlət bir daha sərgilədikləri ittifaqda birlikdə olduqlarını göstərdilər. Sənəd 8 iyun 2012-ci il tarixli Trabzon bəyannaməsi, 28 mart 2013-cü il tarixli Batumi kommünikesi və 19 fevral 2014-cü il tarixli Gəncə bəyanatını təkrarlayır, üçtərəfli və ikitərəfli münasibətlərin inkişafından duyduqları məmnunluğu ifadə edirdilər [4].

19 fevral 2016-cı il tarixində Gürcüstanın paytaxtı Tbilisidə üç ölkənin xarici işlər nazirlərinin beşinci görüşü keçirildi. Görüşdə nazirlər Trabzon Bəyannaməsi, Batumi Kommünikesi, Gəncə və Qars bəyannamələrinin öhdəliklərinə sadiq olduqlarını vurğulamışdırlar. Tiflis sammitində birgə bəyannamə qəbul edilmiş, həmçinin iqtisadiyyat nazirlərinin dördüncü iclası və 6 mart 2015-ci ildə Batumidə keçirilən Üçüncü Üçtərəfli Biznes Forumu, eləcə də müdafiə nazirlərinin 2-17 aprel 2015 və 5 may 2015-ci il tarixlərində ikinci və üçüncü iclasları keçirilmişdir. Sammitdə, eyni zamanda 12 fevral 2015-ci ildə Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının ilk iclası və 17 mart 2015-ci il tarixində Qarsda keçirilən Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) təməlqoyma mərasimi alqışlanmışdır.

23 dekabr 2019-cu il tarixində isə Tbilisi Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin səkkizinci üçtərəfli yığıncağına ev sahibliyi etdi. Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyə xarici işlər naziri Mevlut Çavuşoğlunun qatıldığı üçtərəfli görüş Gürcüstanın xarici işlər naziri David Zalkalianinin dəvəti ilə baş tutmuşdur [7].

Qeyd etmək lazımdır ki, Gürcüstan və Azərbaycan arasında iqtisadi, hərbi təhlükəsizlik və mədəni əlaqələrin gücləndirilməsi bir çox cəhətdən vacibdir. Azərbaycan Gürcüstanın cənubundan gələn təhdidlərinin qarşısını almaqla yanaşı, Gürcüstanın enerji təhlükəsizliyinin etibarlı qarantı olması baxımından da əhəmiyyət daşıyır. Gürcüstan isə, öz növbəsində Azərbaycanın enerji resurslarının Avropa bazarlarına nəqli və digər tərəfdaş ölkə Türkiyə ilə tranzit rolunu oynaması baxımından son dərəcə əhəmiyyətli bir ölkədir. Türkiyə kimi regional bir güc də oxşar maraqlara sahibdir və üçlü əməkdaşlıq formatının əhəmiyyətini anlamaqdadır. İqtisadi inkişaf, enerji, ticarət, nəqliyyat və təhlükəsizlik sahələrində qarşılıqlı maraq və mənfəətə əsaslanan yeni layihələrin həyata keçirilməsi sülh, sabitlik, inkişaf və bölgədə çoxtərəfli inteqrasiyanı təşviq etməkdədir.

44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan, Türkiyə və Gürcüstan arasındakı üçtərəfli münasibətlərin inkişafı istiqamətində bir sıra konkret addımlar atılmışdır. Bu addımlar əsasən regional təhlükəsizlik, enerji və nəqliyyat sahələrində əməkdaşlığın dərinləşdirilməsinə yönəldilmişdir. Nümunə üçün xarici işlər nazirlərinin Bakıda keçirilən üçtərəfli toplantısını (2024) göstərmək olar [6]. Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirləri arasında keçirilən bu görüşlərdə regional sabitlik və təhlükəsizlik mövzuları müzakirə edilmişdir. Görüşlərdə üç ölkə arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın artırılması məqsədilə birgə layihələr və hərbi təlimlərin keçirilməsi planlaşdırılmışdır. Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) kimi mövcud enerji infrastrukturunun gücləndirilməsi və genişləndirilməsi üçün yeni layihələr müzakirə edilmişdir. Bu layihələr regionun enerji təhlükəsizliyini təmin etmək və Avropa bazarlarına daha sabit enerji tədarükü üçün vacibdir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun daha effektiv istifadəsi və yeni logistika mərkəzlərinin qurulması kimi addımlar atılmışdır. Bu, regionun ticari əlaqələrini artırmaq və iqtisadi inkişafını sürətləndirmək məqsədi daşıyır.

Bununla yanaşı, son illərdə Azərbaycan, Türkiyə və Gürcüstan arasında birgə hərbi təlimlər təşkil olunmuş və bu təlimlərin sayı artırılmışdır. Bu təlimlər regional təhlükəsizlik üçün vacibdir və üç ölkənin hərbi qüvvələrinin koordinasiyasını gücləndirir [9]. Bu addımlar, üç ölkənin regional sabitlik və təhlükəsizlik sahəsində əməkdaşlığını gücləndirərək Cənubi Qafqazın inkişafına mühüm töhfələr verir.

## Cənubi Qafqazda regional təhlükəsizliyin təmin olunmasında NATO faktoru və bu çərçivədə Azərbaycan-Gürcüstan münasibətləri

Cənubi Qafqaz geosiyasi və strateji əhəmiyyə-

ti baxımından dünya siyasətində mühüm yer tutur. Regionun enerji resursları, nəqliyyat dəhlizləri və Rusiya, İran və Türkiyə kimi güclü dövlətlərin maraqlarının kəsişməsi bu əhəmiyyəti daha da artırır. Bu kontekstdə, Azərbaycan və Gürcüstanın NATO ilə əməkdaşlığı, həmçinin bu iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq vacib rol oynayır. 44 günlük Vətən müharibəsindən sonra regional təhlükəsizliyin təmin olunması üçün NATO faktoru və Azərbaycan-Gürcüstan münasibətləri daha da aktuallaşmışdır. NATO, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. NATO-nun regiondakı varlığı və fəaliyyəti üzv olmayan ölkələr üçün də təhlükəsizlik zəmanəti və hərbi təlimlər, həmçinin müdafiə sahəsində təcrübə paylaşımı ilə nəticələnir. Azərbaycanın NATO ilə əməkdaşlığı əsasən "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilir. Bu əməkdaşlıq Azərbaycanın hərbi qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması və müdafiə qabiliyyətinin artırılması məqsədini güdür. Gürcüstan isə NATO-ya üzvlük istiqamətində daha fəal addımlar atır və bu prosesdə əhəmiyyətli irəliləyiş əldə etmişdir.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan və Gürcüstan arasında münasibətlər daha da güclənmişdir. Müharibə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra regional təhlükəsizlik və sabitlik məsələləri daha da aktuallaşmışdır. Bu çərçivədə Azərbaycan və Gürcüstan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq genişlənmişdir. Azərbaycan və Gürcüstan arasında birgə hərbi təlimlərin keçirilməsi regional təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Bu təlimlər, hər iki ölkənin silahlı qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması və müdafiə qabiliyyətlərinin artırılması məqsədini güdür.

Başqa sözlə, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan və Gürcüstan arasında münasibətlər daha da inkişaf etmişdir. NATO ilə əməkdaşlıq bu prosesdə mühüm rol oynayır və regionun təhlükəsizlik və sabitliyini təmin etmək üçün vacib bir faktor kimi çıxış edir. Hər iki ölkə arasında müdafiə, enerji və nəqliyyat sahələrində əməkdaşlıq Cənubi Qafqazda sülh və sabitliyin qorunmasına böyük töhfə verir. Bu çərçivədə, Azərbaycan və Gürcüstanın NATO ilə əlaqələrinin dərinləşdirilməsi və üçtərəfli formatda əməkdaşlığın artırılması regional təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayacaqdır.

Hal-hazırda Gürcüstan-NATO münasibətləri inkişaf etməkdədir və Gürcüstanın təşkilata üzvlük istiqamətində irəliləmələri davam edir. 2024-cü ilin mart ayında təşkilatın Baş katibi J.Stoltenberq Tbilisidə Gürcüstanın rəhbərləri ilə görüşlər keçirərək, əməkdaşlığı gücləndirmək və üzvlük yolunda müzakirələr aparmışdır. Stoltenberq Gürcüstanın NATO-ya töhfələrini yüksək qiymətləndirmiş və alyansın Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etmişdir [10]. Əlavə olaraq, NATO ilə Gürcüstan arasında böhran idarəçiliyi (crisis management), kiber təhlükəsizlik, hərbi mühəndislik və təhlükəsiz rabitə sahələrində əməkdaşlığın artırılması istiqamətində addımlar atılmışdır. NATO-nun Gürcüstanın demokratik inkişafına və tam Avroatlantik inteqrasiyasına dəstəyi davam edir.

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fonunda NATO-nun Gürcüstana yanaşması daha da ciddi və strateji bir xarakter almışdır. Təşkilat Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə sarsılmaz dəstəyini dəfələrlə vurğulamışdır. Stoltenberq Tbilisidə keçirdiyi görüşlərdə NATO-nun Gürcüstanın müdafiə qabiliyyətini və hərbi potensialını artırmaq üçün daha genişmiqyaslı əməkdaşlığa hazır olduğunu bildirmişdir. Rusiyanın Cənubi Osetiya və Abxaziyada təsirini artırmağa çalışması fonunda NATO Gürcüstanın təhlükəsizlik sektorunda islahatları və modernləşmə səylərini dəstəkləyir. Bu çərçivədə NATO və Gürcüstan arasında kiber təhlükəsizlik və hərbi təlimlər kimi sahələrdə əməkdaşlıq daha da genişləndirilir. NATO, həmçinin Gürcüstanın Avroatlantik inteqrasiya prosesinə dəstəyini davam etdirərək, regionda sabitlik və təhlükəsizliyin qorunmasına töhfə verməyə çalışır [8]. Gürcüstanın NATO-ya üzvlük istiqamətində atdığı addımlar Rusiyanın regiondakı təcavüzkar siyasətinə qarşı strateji bir cavab olaraq dəyərləndirilir və bu, Qərbin regionda təsirini gücləndirmək məqsədi daşıyır.

## Potensial Azərbaycan-Ermənistan sülh müqaviləsinin Azərbaycan-Gürcüstan münasibətlərinə təsirlərinin perspektivlərinin təhlili

Cənubi Qafqazdakı münasibətlər balansında Ermənistan problemi mühüm rol oynayır. Ermənistan regionda Rusiya ilə yaxın hərbi ittifaq və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük vasitəsilə öz təhlükəsizliyini təmin etməyə çalışır. Bununla yanaşı, İranla mehriban qonşuluq siyasətini gücləndirir, eyni zamanda NATO və Avropa Birliyi

ilə əlaqələrini inkişaf etdirməyə çalışır. Bu ikili siyasət Azərbaycanın və Türkiyənin təhlükəsizlik maraqlarına qarşı potensial risklər yaradır. Azərbaycan və Türkiyə Ermənistanın yaratdığı bu balanssızlığı qarşısını almaq üçün daha sıx hərbi əməkdaşlıq və regional ittifaqlar qurmağa çalışır. Şuşa Bəyannaməsi və digər əməkdaşlıq sazişləri Ermənistanın hərbi və geosiyasi manevrlərinə qarşı bu iki ölkənin birlikdə fəaliyyət göstərməsini təmin edir. Ermənistanın işğalçılıq siyasəti və regionda gərginlik yaratmaq cəhdləri, Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın güclənməsinə səbəb olmuşdur.

Bu baxımdan, iki ölkə arasında hərbi əməkdaşlıq ildən-ilə artan templə inkişaf etmişdir. Yuxarıda qeyd olunduğu kimi, Türkiyə və Azərbaycan arasındakı hərbi əməkdaşlığın təməlində Ermənistan və Rusiya arasındakı hərbi ittifaqın potensial risklərini neytrallaşdırmaq zərurəti dayanmaqdadır. Bilindiyi kimi, 16 avqust 2010-ci ildə "Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə imzalanmışdır [2]. Bundan bir neçə gün əvvəl isə Ermənistanla Rusiya arasında Rusiyanın Ermənistandakı hərbi bazasının icarə müddətinin uzadılması ilə bağlı müqavilə imzalanmışdı.

2020-ci ildəki müharibə və Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi artıq yeni reallıqlar yaratdığından bu müqaviləni yeniləmək lazım gəlirdi. Bu baxımdan, Şuşa Bəyannaməsi 15 iyun 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmışdır[5]. Bəyannamə, siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutur. Xüsusilə, hərbi və müdafiə sahəsində əməkdaşlığın artırılması, birgə hərbi təlimlərin keçirilməsi və təhlükəsizlik məsələlərində koordinasiyanın gücləndirilməsi istiqamətində vacib addımlar atılmasını təmin edir.

Ermənistan problemi təkcə Azərbaycan və Türkiyəni deyil, Gürcüstanı da narahat edir. Gürcüstan Cənubi Osetiya və Abxaziya məsələlərində Ermənistanın Rusiyaya yaxınlığından ehtiyatlanır, çünki bu bölgələrdəki separatçı hərəkatlar Rusiya tərəfindən dəstəklənir. Gürcüstan bölgədə sabitliyi qorumaq və öz ərazi bütövlüyünü təmin etmək üçün regional əməkdaşlığa və Azərbaycan-Türkiyə ittifaqına böyük önəm verir. Üçtərəfli əməkdaşlıq, regionda təhlükəsizliyi və sabitliyi gücləndirməklə yanaşı, Gürcüstanın strateji maraqlarını qorumağa da kömək edir.

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına az qalıb və bu, Cənubi Qafqaz regionunda əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər. Bu sülh müqaviləsi təkcə Azərbaycan və Ermənistan münasibətlərini deyil, eyni zamanda Azərbaycan və Gürcüstan arasındakı əlaqələrə də təsir edəcəkdir. Sülh müqaviləsi regionda stabillik, təhlükəsizlik və iqtisadi əməkdaşlığın inkişafı üçün yeni imkanlar yarada bilər. Sülh müqaviləsinin imzalanması Azərbaycan və Ermənistan arasında mövcud gərginliyin azalmasına səbəb olacaq. Bu isə öz növbəsində Cənubi Qafqaz regionunda sabitliyi gücləndirəcəkdir. Gürcüstan regiondakı hər hansı bir münaqişənin mənfi təsirlərindən əziyyət çəkən ölkələrdən biridir və sabitlik Gürcüstanın təhlükəsizlik maraqları üçün vacibdir. Sülh müqaviləsi, üç ölkə arasında daha güclü təhlükəsizlik əməkdaşlığı və birgə hərbi təlimlərin keçirilməsinə şərait yarada bilər.

Azərbaycan və Ermənistan arasında sülh regiondakı nəqliyyat və ticarət marşrutlarının bərpasına imkan verəcəkdir. Bu, Azərbaycanın və Gürcüstanın iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Zəngəzur dəhlizinin açılması Azərbaycanın Qərb ilə əlaqələrini daha da gücləndirəcək. Bu dəhliz, Bakı-Tbilisi-Qars dəmir yolu və digər nəqliyyat layihələri ilə birgə regionda iqtisadi inteqrasiyanı sürətləndirəcəkdir. Azərbaycanın enerji resurslarının Ermənistandan keçməklə Avropa bazarlarına çatdırılması regionun enerji təhlükəsizliyini təmin edəcəkdir. Bu, həm Azərbaycanın, həm də Gürcüstanın enerji təhlükəsizliyini gücləndirəcək və yeni enerji layihələrinin reallaşdırılmasına imkan yaradacaqdır.

Başqa sözlə desək, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi Cənubi Qafqaz regionunda sabitlik və inkişaf üçün mühüm addım olacaqdır. Bu sülhün təmin edilməsi Azərbaycan və Gürcüstan arasındakı əlaqələrin daha da güclənməsinə, iqtisadi əməkdaşlığın genişlənməsinə və təhlükəsizlik məsələlərində birgə fəaliyyətin artmasına səbəb olacaqdır. Regionda uzunmüddətli sülh və sabitlik üçün bu müqavilənin imzalanması və həyata keçirilməsi vacibdir.

## Nəticə

Azərbaycan və Gürcüstan arasında regional təhlükəsizlik sahəsində əməkdaşlıq Cənubi Qafqazda sabitliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda hər iki ölkə arasında güclü iqtisadi, siyasi və hərbi əlaqələr mövcuddur. Hər

kəsin bildiyi kimi, Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) enerji kəmərləri, həmçinin Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti bu əməkdaşlığın əsas sütunlarıdır. Bu layihələr regionun enerji təhlükəsizliyini və nəqliyyat infrastrukturunu gücləndirir. Gürcüstanın NATO ilə yaxın əməkdaşlığı və Azərbaycanın müdafiə sahəsində modernləşmə səyləri, ikitərəfli və üçtərəfli hərbi təlimlər, həmçinin təhlükəsizlik sahəsində məlumat mübadiləsi ilə dəstəklənir. Perspektivlərə gəldikdə, Ermənistan və Azərbaycan arasında mümkün sülh müqaviləsi regionda daha genişmiqyaslı əməkdaşlıq və sabitliyin təmin olunmasına töhfə verə bilər. Bu, Gürcüstanın təhlükəsizliyinin təmin olunması istiqamətində səyləri artıracaq və iqtisadi inkişaf üçün yeni imkanlar yaradacaqdır. Azərbaycan və Gürcüstanın ortaq hərbi təlimləri və müdafiə sahəsində əməkdaşlıq regional təhlükəsizliyin gücləndirilməsi üçün vacibdir. Hər iki ölkə üçün əsas çağırışlardan biri Rusiyanın regiondakı təsiridir. Bu səbəbdən, Azərbaycanın və Gürcüstanın təhlükəsizlik sahəsində əməkdaşlığını davam etdirməsi və daha da gücləndirməsi vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Asker, A.; Ünal, T. Müstəqillik Dövründə Gürcüstanda Milli Dövlət Quruculuğu, İslam Siyasəti və Regional Əməkdaşlıq. Avrasya İncelemeleri Dergisi, 9, 2 (2020): 125-139.*

*2. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. URL: https://president.az/az/articles/view/1451*

*3. Azərbaycan, Gürcüstan və Türkiyə arasında Trabzon Bəyannaməsi imzalanıb.URL: https://modern.az/tehsil/25133/azerbaycan-gurcustan-ve-turkiye-arasinda-trabzon-beyannamesi-imzalanib/*

*4. Azərbaycan, Gürcüstan və Türkiyənin xarici işlər nazirləri Qars Bəyanatı imzalayıblar. ModernAz. 11 Dekabr 2014. URL: https://modern.az/az/news/68754*

*5. AZƏRTAC. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı: Şuşa Bəyannaməsi və regional təhlükəsizlik. URL: https://azertag.az/xeber/azerbaycan_turkiye_strateji_terefdasligi_susa_beyannamesi_ve_regional_tehlukesizlik-2614382*

*6. AZƏRTAC. Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin 9-cu üçtərəfli görüşü keçiriləcək. URL: https://azertag.az/xeber/bakida_azerbaycan_gurcustan_ve_turkiye_xarici_isler_nazirlerinin_9_cu_uchterefli_gorusu_kechirilecek-2947181*

*7. Güncər, Ə. Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin 8-ci üçtərəfli görüşü. TRT Azərbaycan. 27.02.2020. URL: https://www.trt.net.tr/azerbaycan/iqtisadiyyat/2019/12/23/az-rbaycan-gurcustan-v-turkiy-xarici-isl-r-nazirl-rinin-8-ci-uct-r-fli-gorusu-1328253*

*8. Kakachia, K.; Lebanidze, B.; Kandelaki, S. The Next Stage in NATO-Georgia Relations: Filling the Democracy Gap. URL: https://gip.ge/wp-content/uploads/2024/02/NATO-Georgia-relations_ENG_.pdf*

*9. Novruzov, K. Gələn il Azərbaycan, Türkiyə və Gürcüstan birgə hərbi təlim keçirəcək. URL: https://report.az/xarici-siyaset/gelen-il-azerbaycan-turkiye-ve-gurcustan-birge-herbi-telim-kecirecek/*

*10. VOA. NATO Chief Visits Georgia to Discuss Cooperation, Path to Membership. URL: https://www.voanews.com/a/nato-chief-visits-georgia-to-discuss-cooperation-path-to-membership/7532570.html*

**Доц. С.А. Гарашова**
***Бакинский Государственный Университет Кафедра Дипломатии и современных интеграционных процессов***

## РЕЗЮМЕ

В статье анализируется влияние трехсторонних отношений Азербайджан-Турция-Грузия на региональную безопасность на Южном Кавказе, роль фактора НАТО в отношениях Азербайджана-Грузия, а также перспективы влияния возможного мирного договора между Азербайджаном и Арменией на Азербайджан-Грузию. связи. Во-первых, трехстороннее сотрудничество укрепляет региональную стабильность и безопасность. Военные учения и оборонное сотрудничество между Турцией, Азербайджаном и Грузией дают возможность сохранить баланс сил в регионе и совместно реагировать на угрозы. Во-вторых, роль НАТО в регионе, особенно интеграция Грузии в НАТО, важна для региональной безопасности. Сближение Грузии с НАТО является важным шагом для повышения обороноспособности Азербайджана и обеспечения стабильности в регионе. Совместные военные учения и

проекты безопасности, поддерживаемые НАТО, укрепляют региональную безопасность и уравновешивают влияние России в регионе. Наконец, обсуждаются перспективы возможного мирного соглашения для дальнейшего расширения сотрудничества и региональной стабильности между двумя странами. Мир между Азербайджаном и Арменией создаст условия для реализации экономических и энергетических проектов в регионе, расширения транспортных и торговых связей. Это, в свою очередь, будет способствовать установлению более тесных экономических и политических отношений между Азербайджаном и Грузией. В этом контексте это трехстороннее сотрудничество и роль НАТО имеют большое значение для обеспечения долгосрочного мира и стабильности на Южном Кавказе.

**Ключевые слова:** *Азербайджан, Грузия, Турция, региональная безопасность, сотрудничество, Южный Кавказ.*

**Sabina Garashova**
**P*h.D. (Political Science),***
***Chair of Diplomacy and Contemporary Integration Processes, Baku State University***

**SUMMARY**

This article analyzes the impact of Azerbaijan-Turkey-Georgia tripartite relations on regional security in the South Caucasus, the role played by the NATO factor in Azerbaijan-Georgia relations, and the prospects of the potential Azerbaijan-Armenia peace treaty's effects on Azerbaijan-Georgia relations. First, trilateral cooperation strengthens regional stability and security. Military exercises and defense cooperation between Turkey, Azerbaijan, and Georgia provide an opportunity to maintain the balance of power in the region and to jointly respond to threats. Second, NATO's role in the region, especially Georgia's integration with NATO, is important for regional security. Georgia's rapprochement with NATO is an important step to increase Azerbaijan's defense potential and ensure stability in the region. NATO-backed joint military exercises and security projects strengthen regional security and counterbalance Russia's influence in the region. Finally, the prospects for a possible peace agreement to further increase cooperation and regional stability between the two countries are discussed. Peace between Azerbaijan and Armenia will create conditions for realization of economic and energy projects in the region, expansion of transport and trade relations. This, in turn, will contribute to the establishment of closer economic and political relations between Azerbaijan and Georgia. In this context, this tripartite cooperation and the role of NATO are of great importance for ensuring long-term peace and stability in the South Caucasus.

**Keywords:** *Azerbaijan, Georgia, Turkey, regional security, cooperation, South Caucasus.*